# Ədil İsgəndərovun yaradıcılığından ştrixlər



*Azərbaycan teatrının inkişafında böyük xidmətləri olmuş görkəmli rejissor Ə.İsgəndərov öz yüksək xidmətləri ilə incəsənətimizdə gözəl səhifə açmışdır. Onun teatrdakı fəaliyyət dövrü 1936-cı ildən 1960-cı ili əhatə edir. Moskvada böyük təcrübə məktəbi keçən Ə.İsgəndərov vətənə dönür və öz fəaliyyətinə Akademik Milli Dram Teatrında rejissor kimi başlayır.*

*Artıq dövr başqa idi. Çox şey dəyişmişdi. Teatr C.Cabbarlı kimi böyük bir insanı itirmişdi. Represiya adlı tufan tüğyan edirdi. Bu tufan teatrdan da yan keçməyəcəkdi. İnsanlar qorxu, səksəkə, inamsızlıq, ümidsizlik içində yaşayırdılar. Belə bir ağır zamanda böyük sənət ocağı sayılan Dram teatrında işləmək çox çətin idi. Aktyorlarda ruh yüksəkliyi yaratmaq, sabaha ümidlə baxmaq, yaşayıb yaratmaq ruhunu aşılamaq lazım idi. Bu dövrün tələbi idi. Ə.İsgəndərov belə bir vaxtda göstərilən etimadı doğrultmağı özünə borc bilirdi. Dövrün çətinliklərinə baxmayaraq Respublikanın sevimli rəhbər saydığı M.C.Bağırov bu teatrı çox sevir və ona xüsusi diqqət ayırırdı. Təkcə xalqların ulu rəhbəri və atası Stalin yoldaşın: "Yaşasın Azərbaycan artistləri!" - sözləri bütün teatrın qarşısında böyük vəzifələr qoyduğu halda passiv olmaq cinayət idi.*

Ətrafda baş verən və baş verəcək hadisələri təmkinlə, soyuqqanlı qəbul etmək və bütün bunları göstərməmək, eşitməmək gənc rejissorda apardığı işin gedişatını göstərirdi. Özünü çərçivəyə salan rejissorun məqsədi yalnız iş görmək və göstərmək idi.

Ədil İsgəndərovun bu teatra gəlişi bir çox qayda-qanunların kökündən dəyişməsi ilə nəticələndi. Teatrda rejissorun mövqeyini müəyyən etdi. Və teatrın bütün ağırlığını öz çiyinlərinə götürən rejissor teatrın gələcək fəaliyyətini tez-tez müzakirəyə çıxardı və dəfələrlə öz çıxışlarında teatrın incəsənətin bir neçə növünün birləşməsindən əmələ gəldiyini önə çəkdi. Tamaşanın yaranmasında yazıçı da, rejissor da, aktyor da əsas amil təşkil etdiyini bildirirdi. Teatrın işinə bu janrda yanaşmaq təbii ki, nə yaşlı, nə də orta nəslin aktyorlarının xətrinə dəymirdi. Hər halda bu belə görünürdü.

Teatrın vəziyyəti uzaqdan yaxşı görünsə də, daxildəki sarsıntılar, vurulan zərbələr dərin idi. 1937-1938-ci illərdə teatrın həyatında böyük rol oynayan yazıçı-dramaturq H.Cavid, Ə.Cavad, aktyorlardan Ü.Rəcəb, A.Şərifzadə, D.Tanaildi həbs olunub teatrdan çıxarıldılar. Belə vəziyyətdə işləmək, dövrün hansısa qəhrəmanını yaratmaq, dövlətin sosializm rejiminə alqış demək çox çətin idi. Teatr əgər belə zamanda "Polad Qartal", "Həyat", "Vaqif", daha sonra "Xanlar" kimi tamaşalara quruluş verə bilirdisə, bundan sonra daha da əzmlə çalışacağına şübhə qalmırdı.

Ədilin teatrdakı fəaliyyəti doğrudan da çox çətin bir dövrə təsadüf etdiyi vaxtda birdən-birə 1941-ci il müharibəsinin başlanması teatrın vəziyyətinə və inkişafına öz təsirini göstərməyə bilməzdi.

Artıq vəziyyət dəyişmişdi. Partiya və hökumət teatr səhnəsində tamaşaların artıq başqa əhval-ruhiyyədə olmasını tələb edirdi. Və bu tələbdən irəli gələn, vəziyyətin məsuliyyətini hiss edən rejissora təbii ki, vətənpərvərlik, xalq, millət, qəhrəmanlıq, "Stalin uğrunda ölümə" şüarları ilə bəzədilmiş tamaşalara quruluş vermək lazım gəlirdi. Ədil İsgəndərovun müharibə dövrünə təsadüf edən yaradıcılığı öncə S.Vurğunun "Fərhad və Şirin", "Nizami", "Məhəbbət", "Dumanlı Təbriz" tamaşaları ilə tarixdə qaldı. Qəribə bir məqam ortaya çıxır. Sovet rejiminin hər dövrə uyğun tamaşalarının səhnələşdirilməsi tələbi, bir növ rejissorun, aktyorların arzuladıqları hər hansı bir tamaşaya quruluş verib oynamaları arxa plana çəkilirdi. Teatr tam nəzarət altında fəaliyyət göstərirdi. Ədil İsgəndərovun teatrda yaratdığı atmosferdə istər özünün, istərsə də yaradıcı kollektivin narazılığı hiss olunurdu.

Teatr həmişə olduğu kimi öz fəaliyyətində idi. O yenə də teatra dramaturqları dəvət etməkdə idi. Onun dramaturqlarla işləməkdə artıq böyük təcrübəsi vardı. Tənqidə münasibəti müsbət olan rejissor əsərlərə də tənqidi surətdə yanaşmanın tərəfdarı idi. Teatr tamaşanı qoymazdan əvvəl əsər təhlil edilir, bunun obrazı və dili, sairə təhlil ediləndən sonra səhnəyə, tamaşaya qoyulması üçün çalışırdı. Bu da tamaşanın səhnədə göstəriləne qədər qüsurlarının aradan qaldırılmasına səbəb olurdu. 1945-ci ilə təsadüf edən hesabat şəkilli yazısında tənqidçilərin işini bəyənməyən rejissor yazırdı:

"Tənqidçi yoldaşlar tamaşa haqqında yazmırlar. Rejissorun işinə dramaturq qarışırsa, bu düzgün deyil. Mən özüm bunun şahidi olmuşam, vaqonda gedərkən belə eşitmişəm. Deyir ki, Ələkbərov çox ağıllı söz deyir: daha bilmir ki, bu sözü kim deyir. Yazıçı ilə teatrın əlaqəsi son zamanda çox soyuqdur. Bu yaxşı deyil.

Rejissorlardan sosializm mündəricəli, milli formalı tamaşalar uğrunda mübarizə tələb olunurdu. Hər bir yaradıcı kimi rejissorlar da xalqın milli ənənələrini əla surətdə bilməli, bu ənənələri öz yaradıcılıqlarında davam və inkişaf etdirməli idi. Öz xalqının milli ənənələrini bilməyən rejissor təbii ki, onun quruluş verdiyi hər hansı tamaşaya baxarkən onun hansı millətə aid olduğunu müəyyənləşdirmək mümkün olmaz.

Ədil İsgəndərov öz məqaləsində yazırdı: "Teatr tariximizi öyrənmək, səhnəmizin böyük xadimlərinin yaradıcılığına bələd olmaq bizim əsas işlərimizdən biridir. Azərbaycan teatr işçiləri bu işlə hər zaman məşğul olmalıdırlar. Lakin bu iş yalnız respublikamızın teatr tarixi çərçivəsində qalmamalı, daha geniş masştablara çıxarılmalıdır. Biz ilk növbədə böyük rus xalqının teatrında və dünyanın ən mədəni teatrı olan MXAT-dan öyrənməliyik. MXAT-ın və onun ustalarının yaradıcılığı bizim üçün sənətkarlıq məktəbidir. Bu məktəbdən səmərəli surətdə istifadə etmək bizim borcumuz və vəzifəmizdir. Böyük ustad Stanislavskinin əsərlərinin Azərbaycan dilinə tərcümə olunması bu işdə bizim teatrlara qüvvətli təkan verə bilər" (Ə.İsgəndərovun məqaləsidir, adı yoxdur, şəxsi arxivdəndir).

Bu məqalə Ədilin Moskvadan Bakıya təzəcə döndüyü vaxtlara təsadüf edirdi. Sonralar demək olar ki, bu məzmunlu yazılara onun arxivində rast gəlmək olurdu.

Təsəvvürlərdə partiya və hökumətin rəhbərliyi altında Azərbaycan teatrları parlaq bir surətdə inkişaf edir və böyüyürdü.

Azərbaycan incəsənətinin, bolşevik partiyasının, sovet hökumətinin sevimli rəhbəri Mir Cəfər Bağırov yoldaş gündəlik qayğısı və diqqəti sayəsində bu vəzifənin öhdəsindən şərəflə gələcəklərinə söz vermişdi.

Bütün bunlarla bərabər teatrın ən əsas işi repertuarının təşkili idi. Bunun üçün yeni əsərlərin yaradılması və teatra dramaturqların cəlb olunması idi.

Ədil İsgəndərovun bu işlə bağlı apardığı təbliğat uzun illər boyu davam etdi. Demək olar ki, teatrda işlədiyi müddət ərzində bu proses davam edirdi. Bu da Azərbaycan milli dramaturgiyasının inkişafına və zənginləşməsinə səbəb oldu.

Azərbaycan teatrının vəziyyətini belə xarakterizə etmək olardı. Azərbaycan teatrının zəngin rejissorluq və aktyorluq sənəti, onun milli romantizmə möhkəm bağlılığı, zəhmətkeş xalqın mənafeyini hər şeydən uca tutması, hər cür çürük məfkurələrə, birinci növbədə Azərbaycan dili və mədəniyyətinin öz xüsusi yolu və inkişaf etməsinə mane olmaq istəyən pantürkistlərə, panislamistlərə qarşı belə inadlı mübarizə etməsi və nəhayət, sosialist realizmi cəbhəsində möhkəm dayanması, Azərbaycan sənətinin həqiqi mənada milli səhnəyə çevrilməsi-bütün müvəffəqiyyətlərin hamısı demokratik və inqilabi rus mədəniyyətinin nəcib təsirləri sayəsində əldə edildiyi önə çəkilirdi.

Zamanın gerçəkliyi Azərbaycan teatrına və ümumiyyətlə mədəniyyətə bunu diqtə edirdi. Gerçəklik isə bundan ibarət idi.

"Qılınc zoruna Azərbaycan xalqının İran şahlarının, Türkiyə paşalarının köləsinə çevrilməyə can atan istilaçılarla mübarizədə böyük rus xalqının qardaşlıq köməyinə arxalanmış biz azərbaycançılar, ədəbiyyat və sənət sahəsində də öz milli istiqlaliyyətimizi bu kömək sayəsində hifz edə bilmişik deyə beyinlərinə yeridilirdi. "İran-Turan" - deyə bağıranlar xalqın qəddar düşmənləri - şeyxləri, imamları, peyğəmbərləri, xaqanları və sultanları səhnəyə çıxarmaq yolu ilə xalqımızın milli azadlıq duyğularını xaincəsinə təhqir etdikləri halda rus mədəniyyətinin gözəl təsirini duymuş Axundovlar, C.Cabbarlılar və Səməd Vurğunlar səhnədə Azərbaycan xalqının milli həyatını, onun böyük tarixini, inqilabi mübarizəsini göstərən yüksək bədii lövhələr yaratmış, xalqımızın da müqəddəs milli qürur, həqiqi sovet vətənpərvərliyi hissini alovlandırmış, rus xalqı ilə bizim əbədi qardaşlıq ittifaqımızın dərin tarixi mənasını doğru dərk etmişlər" (1948-ci il, "Kommunist", "Sənət zirvəsində" (məqalənin müəllifi yoxdur).

Odur ki, zamanla ayaqlaşmaq lazım gəlirdi. Mübarizə yersiz idi. Düzü, mübarizə teatrın bəlkə də heç ağlına da gəlmirdi. Bir halda ki, vəzifəyə etimad edib səni qoyublar, demək onlara tabe olmalısan.

Qeyd etdiyim kimi, böyük əzmlə teatr 75 illik yubileyini qeyd etməyə hazırlaşırdı.

75 illik uzun bir yaradıcılıq yolu keçən Əzizbəyov teatrı sovet dövründə, bolşevik partiyasının, dahi Stalinin atalıq qayğısı nəticəsində həqiqi bir xalq teatrı kimi inkişaf edərək xalqın məhəbbət və hörmətini qazanmış teatr mədəniyyətinin məbədgahı olmuşdur.

Təbii ki, böyük bayram günün-



də xalq Lenin-Stalin partiyasına öz dərin minnətdarlıq və təşəkkür hisslərini yeni bir qüvvə ilə nümayiş etdirirdi.

Ə.İsgəndərovun teatra rəhbərlik etdiyi vaxta təsadüf edən bu yubiley rejissorun yaradıcılığının ən xoş təsadüflərindən biri idi ki, partiya və hökumət qarşısında özünü göstərə bilsin.

(Ə.İsgəndərovun şəxsi arxivindən 75 illik yubileyə həsr olunmuş tədbirdəki çıxışdan. 1948-ci il)

"Azərbaycan mədəniyyətinin bu böyük bayramı bolşeviklər partiyasının, sovet dövlətinin, şəxsən atamız və müəllimimiz Stalin yoldaşın sovet xalqlarının formaca milli, məzmunca sosialist mədəniyyətlərinin inkişafına göstərdiyi böyük diqqət və qayğısının parlaq ifadəsidir.

Vətənimizin xalqları sovet hakimiyyəti dövründə Lenin-Stalin milli siyasətinin təntənəsi sayəsində öz mədəniyyətlərinin tarixdə misli görünməmiş bir vüsət, əzəmət (əzəmət sözün əl yazısı ilə əlavə edib) və sürətlə inkişaf etdirərək böyük naliyyətlər əldə etmişlər.

Sovet hakimiyyəti sayəsində, sovet ictimai və dövlət quruluşunun həyatiliyi sayəsində inkişaf edərək qabaqcıl sovet teatrları sırasında görkəmli bir yer tutmağa müvəffəq olan Əzizbəyov teatrı ilə xalq fəxr edirdi.

Bu gün şanlı yubileyini qeyd edən Əzizbəyov teatrı böyük nailiyyətlərdən, misli görünməmiş yüksəlişdən danışarkən təbii bu nailiyyətlərin çox faizi 38 yaşlı rejissorun ayağına yazılırdı. Təbii ki, bu gündən o günə çevrilib baxmaq, nəyisə qəbul edib və qəbul etməmək çox adi bir şeydir. Amma o dövrün içində yaşamaq, öz milli maraqlarını qorumaq çox çətin idi.

Ədilin teatra rəhbərlik etdiyi dövrdə teatr atmosferi çox sabit idi. Baxmayaraq ki, bütün sistem yenidən qurulmuşdu. Amma aktyorlar arasında nəzərə çarpacaq parlaqlıq hiss olunmurdu. Hələ ki, bir nəfər narazı adam var idisə, o da Ə.İsgəndərovun özü idi.

Yubileydən sonra teatrda yaranan arxayınçılıq onu razı sala bilməzdi. Çünki belə arxayınçılıqla partiyanın və xalqın tələbini istənilən dərəcədə ödəyə bilməzdi. Belə bir vəziyyətin alınmasında özünü təqsirkar bilən Ə.İsgəndərovun öz məruzəsində: "Burada mənim təqsirim hamıdan çox olub. Heç bir çətinliklərə baxmayaraq mən gərək güzəştlərə getməyəydim. Kollektiv öz üzərində az işləyir. Aktyor hər gün öz üzərində işləməlidir" (Ə.İsgəndərovun məruzəsindən. 1948-ci il).

Azərbaycan Kommunist Partiyasının XIX qurultayında M.C.Bağırov respublikanın bütün sahələrinin yararlı və yararsız cəhətlərindən danışarkən Azərbaycan Dövlət Dram Teatrının işini nədənsə tənqid etdi. Və Ədil İsgəndərov bu tənqidin haqlı olaraq deyildiyini qeyd etdi. Bütün bunlara baxmayaraq yoldaş Bağırov bu teatrı sevir və xüsusi diqqət yetirirdi.

Ə.İsgəndərovun teatr üçün gördüyü işlər yüksək dəyərləndirilirdi. Onun teatrda rejissor kimi yaratdığı şərait kollektiv üçün dəyərli idi. Teatrda istər rejissor, istərsə də aktyor üçün geniş imkan yaradırdı.

"Azərbaycan teatrında heç zaman Ədil İsgəndərovun rejissorluq metodologiyası kimi bitkin, mükəmməl metodologiya olmamışdır. Milli dramaturgiyanın inkişafında, bir neçə aktyor nəslinin tərbiyəsində, rejissorun yetişməsində Ə.İsgəndərovun rejissorluq metodologiyası tarixi rol oynamış və güclü təsir göstərmişdir" (İ.İsrafilov Bakı-2001. A.İsgəndərovun teatrı).

Ədil İsgəndərovun yaradıcılığının əsasını müasir tamaşalar təşkil edirdi. Təbii ki, bunun bir səbəbi vardı: "Azərbaycan bolşeviklərinin XVIII qurultayında M.C.Bağırov yoldaş yazıçılar qarşısında konkret vəzifələr qoymuşdur. Onlar Zaqafqaziya xalqlarının yadelli işğalçılara qarşı əlbir mübarizələrinə, xalqların dostluğuna, ölkəmizdə gedən quruculuq işlərinə aid yeni əsərlər yazmışlar". Bu əsərlərdə səhnə öz layiqli yerini almalı idi. Ə.İsgəndərovun bu tələblərdən irəli gələn vəzifələri təbii ki, yerinə yetirilirdi. Hətta teatr bu tamaşalarla 1938-1959-cu illərdə Moskvada keçirilən teatr ongünlüyündə böyük müvəffəqiyyət qazanmışdır. Moskvada nümayiş etdirilən M.Hüseynin "Cavanşir" tarixi qəhrəmanlıq draması Azərbaycan SSR dram, musiqi teatrları ansamblı və xor kollektivlərinin 22 noyabr 1957-ci ildə keçirilmiş festivalın münsiflər heyətinin sədri İ.N.Nəzərov tərəfindən Respublika festivalının laureatı adına layiq görülmüşdür.

Ədil İsgəndərovun quruluş verdiyi hər tamaşa böyük rəğbətlə qarşılandı. Xüsusən onun sənətini başa düşən sənətkarlar tərəfindən qiymətləndirəndə çox dəyərli olur.

Ədil İsgəndərov tamaşalarında süni, yersiz jestlər əleyhinə barışmaz mübarizə aparırdı. Rejissorun əsas məqsədlərindən biri də məşq zamanı əsərin yaxşı oxunması, bütün personajları dərindən təhlil etmək, mətnin arxasındakı məzmunu açıqlamaq, surətin sözünün və hərəkətinin mənasını bilməkdir. Ədilin ilk tamaşası canlı və dinamik bir şəkildə yüksək templə gedirdi. Gənc rejissorun qazandığı bu ilk müvəffəqiyyət onu arxayın etmə-

di. Ümumiyyətlə, onun yaradıcılığına arxayınçılıq sözü yad idi. Tamaşanı nəzarətsiz buraxan rejissorlara aid olmayan Ə.İsgəndərov uzun müddət keçsə də həmin tamaşaya eyni diqqət ayırırdı. Hətta rejissor əlli-altmış tamaşadan sonra yenə də öz əlavələrini etməkdə idi.

Sənətkarın şəxsi arxivində maraqlı qısa bir məktub var. Bu da 15 sentyabr 1957-ci ildə İ.Səfərli tərəfindən yazılmışdır. Məktub belədir: "Polad Qartal"dan "Cavanşir"ə nə çətin, nə mənalı, nə şairanə bir rejissorluq yolu... nə böyük bir qəlb...səcdə edirəm..." (Ə.İsgəndərovun şəxsi arxivindən.15.IX.1957 ).

Uzun zaman hakimiyyəti qorxu, hədə altında qoruyub saxlayan Bağırov rejiminə son qoyuldu. 1937-ci ilin qurbanlarına bəraət verildi. Sovet məkanında fəaliyyət göstərən demək olar ki, bütün teatrlar bir qaydada həmişə sadiq idilər. O da rus teatrlarının təcrübələrindən bəhrələnmək. Düzdü, belə bir vaxtda Ədil İsgəndərov ətrafında Azərbaycan dramaturqlarının böyük bir dəstəsi toplanmışdır. Rus və Qərb klassiklərinin tamaşaya qoyulmasına şərait yaradan rejissor milli dramaturgiyanın inkişafı üçün ciddi, cəhdlə çalışırdı. Teatrın ətrafında birləşən M.İbrahimov, M.Hüseyn, S.Rəhman, S.Rüstəm, R.Rza, Ə.Məmmədxanlı, İ.Əfəndiyev, C.Məcnunbəyov, Z.Xəlil, H.Seyidbəyli, İ.Qasımov, İ.Səfərli, A.Babayev kimi yazıçılar idi.

Bundan başqa istedadlı bəstəkarlar Q.Qarayev, F.Əmirov, C.Cahangirov, T.Quliyev, S.Ələsgərov, Ə.Bədəlbəyli və bir çox başqaları zəngin yaradıcılıqları ilə teatra kömək edirdilər.

Sovet dövründə yetişən ən istedadlı teatr rəssamları İ.Axundov, B.Əfqanlı, N.Fətullayev, S.Şərifzadə bu teatrın ətrafında birləşmişdilər.

Ə.İsgəndərovun xidmətləri qiymətləndirildi. Dövlət tərəfindən Xalq artisti adına layiq görüldü.

Moskvanın mədəniyyət naziri Mixaylov tərəfindən təbrik məktubu alan sənətkar dostları tərəfindən də maraqlı məzmunlu teleqramlar aldı.

Cəfər Xəndan: "Uşaqlıq günlərini xatırlayıram, kim deyərdi ki, pioner Adil SSRİ xalq artisti olacaqdır. Sən buna öz qabiliyyətinlə nail oldun. Teatrımızın çiçəklənməsi naminə sənə cansağlığı arzu edir, bu bayram günündə bərk-bərk öpürəm."

B.Bağırov: "Sizi, Azərbaycan teatr incəsənətinin bayraqdarını, səhnəmizin böyük müəllimini yüksək ad almağınız münasibətilə bağrıma basıb dönə-dönə öpürəm, sizə həyatda cansağlığı, doğma teatra səhnəmizin daha da inkişafı naminə yaratdığınız müvəffəqiyyətləri arzu edirəm, teatr incəsənətimizin qartalı yaşa, yarat."

Bəxtiyar Vahabzadə: "Siz həmişə xalq həyatı ilə yaşamış, səhnədə xalq həyatını təcəssüm etdirmisiniz. Xalq artisti adı sizə halal olsun."

Sənətkarın ünvanına yazılan çoxlu sayda teleqramlar onun sənətinə, yaradıcılığına verilən qiymət idi.

Ədil İsgəndərovun yaradıcılığının 22 ili məhz bu teatrla bağlı oldu. O, bu teatrda həm çətin, həm də xoş günlər yaşadı. O, ömrünün ən gənc çağlarında, 28 yaşında böyük bir yükün altına girdi. 1936-37-38-ci illərin qorxulu müdhiş günlərini yaşadı, 1941-45-ci illər müharibənin ağır dövrlərini yaşadı və bütün çətinliklərdə teatrı yaşatdı.

"Ədil İsgəndərovun baş rejissorluğu ilə Akademik teatr 65 illik yaradıcılığında yeni mərhələyə qədəm qoydu. İyirmi iki il bu vəzifəni vicdanla icra edən Ədil İsgəndərov aktyor məktəbinin formalaşmasında, milli rejissuramızın, səhnəqrafiyamızın, teatr bəstəkarlığımızın... inkişafında, bir neçə aktyor nəslinin yetişməsində misilsiz xidmət göstərdi" (İ.Rəhimli: Akademik Milli Dram Teatrı. I kitab, 2002).

Teatra yeniliklər gətirən rejissor teatrı özünün qeyd etdiyi kimi hərbi rejim ilə idarə edərək bütün kollektivi bir araya gətirdi. Teatrda hər kəsin vəzifəsini, görəcəyi işi müəyyənləşdirdi. Teatrı qüdrətli sənət ocağına çevirdi.

"Teatrda romantik və realist aktyor məktəblərinə mənsub aktyorların yaradıcılıqları get-gedə daha da formalaşdı. Onlar həm bir-birindən fərqlənirdilər, həm də teatrın vahid üslubunda ahəngdar şəkildə eyni məqsədə xidmət edirdilər. Bu iki aktyor məktəbinin yeni mərhələdə inkişafı ilk növbədə Ədil İsgəndərovun fəliyyəti ilə bağlıydı" (İ.Rəhimli: Akademik Milli Dram Teatrı. I kitab, 2002).

Teatrşünas alim İ.Rəhimli öz kitablarında sənətkarın teatrdakı roluna, yaradıcılığına verdiyi qiymət doğrudan da dəqiq və dəyərlidir. Dövrünün bütün tənqidçiləri tərəfindən yüksək qiymət alan sənətkar bu gün də qiymətləndirilir.

Teatrşünas İ.İsrafilovun "Ə.İsgəndərovun teatrı" adlı monoqrafiyasında rejissorun yaradıcılığı haqqında qeyd etdiyi bir məqamı nəzərinizə çatdırıram: "Polad Qartal"dan "Vaqif"ə, "Otello"ya qədər keçən yolda Ə.İsgəndərov böyük bir aktyor nəslinin yetişməsini təmin etmiş, rejissor-dramaturq münasibətlərinə nümunə olaraq teatr ənənəsini yarada bilmişdir" (İ.İsrafilov "Ədil İsgəndərovun teatrı" Bakı-2001).

Ə.İsgəndərovun yaradıcılıq yolu şərəfli olmuşdur. Onun yaradıcılığı hər bir insana örnək ola bilər.

***Reyhan NOVRUZOVA***